# NATO ilə əməkdaşlıq xüsusi əhəmiyyətə malikdir

## *Azərbaycan BMT və onun alt qurumları ilə də fəal əməkdaşlığı ilə seçilir*

**Müasir beynəlxalq münasibətlər sistemində ölkələrin ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı əhəmiyyətli rola malikdir. Tarixi müddət baxımından çox az bir dövrdən bəri müstəqil olan Azərbaycan Respublikası həyata keçirdiyi xarici siyasət və çox tərəfli əməkdaşlıq prinsipləri sayəsində beynəlxalq birliyin fəal üzvlərindən birinə çevrilib. Ölkəmiz beynəlxalq təşkilatların işində fəal iştirak edir, həmçinin il ərzində bir neçə forum, konfrans və digər beynəlxalq tədbirlərin təşkilatçısı olur.**

SSRİ-nin süqutundan sonra Qərbin və Rusiyanın dəstəklədiyi Ermənistan tərəfindən Dağlıq Qarabağ və ətraf rayonların işğal edilməsi Azərbaycanın xarici siyasətinə təsirsiz ötüşmür. Bu problem xarici siyasətin əsas gündəmdə olan məsələlərindən biridir və bütün beynəlxalq tədbirlərdə, beynəlxalq təşkilatlarda aparılan danışıqlarda Azərbaycan bu problemi önə çəkir. Azərbaycan üzv olduğu BMT, İKT, EKO, ATƏT, MDB, Avropa Şurası və digər nüfuzlu təşkilatlarda ərazi bütövlüyünün bərpası ilə bağlı mütəmadi olaraq müzakirələrin aparılmasına və müvafiq sənədlərin qəbul edilməsinə çalışır və əksər hallarda işğalçı tərəf olan Ermənistanın hərəkətlərini beynəlxalq birlik tərəfindən pislənməsinə nail olur. Bununla belə müasir beynəlxalq sistem, böyük dövlətlərin regionla bağlı geoiqtisadi, geosiyasi məqsədləri problemin birdəfəlik həllinə mane olur.

Qərbin və Rusiyanın ikili standartlara əsaslanan xarici siyasəti Ermənistanın ciddi cəzalandırılmasına və ya işğal altında olan ərazilərimizin sülh yolu ilə azad edilməsinə həlləki imkan vermir. 1992-ci ilin martından BMT-yə üzv qəbul edilən Azərbaycanın qarşısında duran vacib məsələ ərazi bütövlüyünün qorunması ilə bağlı təşkilatın dəstəyini almaq idi. Bununla belə, BMT uzun müddət Dağlıq Qarabağ və ətraf rayonlarda Ermənistan tərəfindən aparılan hərbi əməliyyatların qarşısının alınması barədə ciddi addım atmadı. Bu məsələdə daha çox BMT Təhlükəsizlik Şurasının daimi üzvləri məsuliyyət daşıyırdılar. Ancaq TŞ-nın daimi üzvlərindən ABŞ, Fransa və Rusiyanın açıq şəkildə ermənipərəst siyasət yürütmələri Dağlıq Qarabağla əlaqədar BMT-nin ciddi addım atmasına mane oldu. Yalnız Dağlıq Qarabağ ətrafındakı rayonların işğalından sonra 1993-cü ildə BMT Təhlükəsizlik Şurası münaqişəyə dair 822, 853, 874, 884 nömrəli qətnamələr qəbul etdi. Ölkəmizin ərazi toxunulmazlığını təsdiq edən bu qətnamələrdə hərbi əməliyyatların dayandırılması və işğalçıların Azərbaycan Respublikasının ərazisini tərk etməsi məsələləri öz əksini tapıb.



Azərbaycan BMT və onun alt qurumları ilə fəal əməkdaşlığı ilə seçilir. Azərbaycan Respublikasının rəhbərliyi mütəmadi olaraq BMT-nin Baş Assambleyasının mühüm əhəmiyyətli toplantılarında iştirak edirlər. Ümummilli lider Heydər Əliyev Baş Assambleyanın 49-cu və 50-ci sessiyalarında iştirak etmiş, 2000-ci ilin sentyabrında BMT-nin Minillik Zirvə Toplantısına qatılaraq qloballaşma və təhlükəsizlik məsələlərini də əhatə edən çıxış etmişdir. 2004-cü ildə isə Baş Assambleyanın 59-cu sessiyasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxış edərək Ermənistanın ərazilərimizi işğal etməsi faktına yenidən BMT tribunasından dünyaya çatdırdı və nəticədə sessiyanın gündəliyinə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı bənd salındı.

**Azərbaycan BMT tərkibində yaradılmış bir sıra qurumlarla sıx əməkdaşlıq edir. Bunlara İnkişaf Proqramı, BMT-nin Qaçqınlar üzrə Ali Komissarı, Uşaq Fondu, Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Sənaye İnkişaf Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, Qadınlar Fondu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan olunması haqqında Müqavilə Təşkilatı və s. daxildir. Azərbaycanın BMT ilə əməkdaşlığı çərçivəsində Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi mühüm əhəmiyyət kəsb edir. 2011-ci ilin 24 oktyabrında TŞ-nın iki illiyə qeyri-daimi üzvü seçilən Azərbaycan bu müddətdə iki dəfə Təhlükəsizlik Şurasına sədrlik edib.**

Dünyada baş verən əksər proseslərə müdaxilə etmək hüququna malik TŞ-da sədrlik edən Azərbaycanın bu dövrdəki fəaliyyəti olduqca məhsuldar hesab edilir. 2012-ci ilin may ayında birinci sədrlik dövründə TŞ-da keçirilən "Terrorizmlə Mübarizə Sahəsində Öhdəliklərin Yerinə Yetirilməsi ilə bağlı Beynəlxalq Əməkdaşlığın Gücləndirilməsi" mövzusunda yüksək



səviyyəli iclasa prezident İlham Əliyev sədrlik etdi. Bu, Azərbaycanın öz üzərinə götürdüyü missiyanın həyata keçirilməsinə xüsusi önəm verdiyini göstərir. TŞ-da Azərbaycanın sədrliyi dövründə dörd qətnamə, altı bəyanat qəbul edilib.

Azərbaycanın Avropa miqyasında əməkdaşlıq etdiyi əsas siyasi təşkilatlardan biri Avropa Şurasıdır. 2001-ci ilin 25 yanvar tarixində bu quruma üzv olan Azərbaycan siyasi sisteminin təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi kimi sahələrdə müxtəlif işlər həyata keçirib. Avropa Şurasının işində fəal iştirak edən Azərbaycan tərəfi burada da bəzən ikili standartlar və qərbli parlamentarilərin anti Azərbaycan yönümlü fəaliyyəti ilə üzləşir.

Qəribədir ki, Azərbaycanla eyni vaxtda işğalçı Ermənistanı üzvlüyə qəbul edən Avropa Şurası bu ölkənin ərazilərimizi hələ də işğalda saxlaması faktına göz yumur. Rusiyanın Krımı işğal etməsinə ciddi və aqressiv reaksiya verən AŞ eyni mövqeyi Azərbaycan ərazilərini işğal edən, milyondan artıq insanın doğma yurd yuvalarından didərgin düşməsinə səbəb olmuş Ermənistana qarşı sərgiləmir. Bəzi hallarda isə bu təşkilatın tribunasında Azərbaycana qarşı düşmənçilik siyasəti həyata keçirmək istəyənlər istifadə edir.

Azərbaycanın Avropa Şurasında fəaliyyətində 1995-ci və 2000-ci illərdə millət vəkili seçilmiş İlham Əliyevin gördüyü işləri qeyd etmək lazımdır. 2001-2003-cü illərdə AŞ Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri olan İlham Əliyev bu beynəlxalq tribunadan Azərbaycan həqiqətlərinin Avropaya çatdırılması, əsrlər boyu Avropada məskən salmış erməni diasporunun anti Azərbaycan təbliğatının sındırılması, bir sıra avropalı siyasətçilərin ölkəmizə qarayaxma kampaniyalarının qarşısının alınması məqsədilə məharətlə istifadə etdi.

**2003-cü ilin yanvar ayında Parlament Assambleyasının sədr müavini və büro üzvü seçilən İlham Əliyevin düşünülmüş və peşəkar diplomatik fəaliyyəti nəticəsində "İnsan hüquqlarının müdafiəsi" adı altında ölkəmizə qarşı hücuma keçən ermənipərəst deputatların cəhdlərinin qarşısını alındı və ifşa edildilər.**

Azərbaycanın əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar arasında NATO mühüm yer tutur. Müstəqilliyinin ilk illərindən xarici təcavüzlə üzləşmiş Azərbaycan hərbi strukturlarının təkmilləşdirilməsi, ordu quruculuğunun müasir tələbələrə uyğun aparılması və yüksək dünya standartlarına cavab verən NATO hərbi sistemi əsasında öz ordusunun inkişafı üçün bu təşkilatla müxtəlif səviyyələrdə əməkdaşlıq edir. 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulan Azərbaycan bir sıra fəaliyyətlərdə NATO ilə birgə işlər həyata keçirir. Azərbaycan həmçinin Kosova, İraq və Əfqanıstanda sülhməramlı əməliyyatlarda NATO ilə birgə fəal iştirak edib.

Azərbaycanla Avropa Birliyi arasında münasibətlər də xüsusi əhəmiyyətə malikdir. Vahid Avropa ideyasının bir parçası olan bu təşkilatla əlaqələr müəyyən mərhələlərdən keçib. 1996-cı ildə tərəflər arasında Tərəfdaşlıq və Əməkdaşlıq sazişi imzalanıb, 2004-cü ildə "Genişləndirilmiş Avropa" təşəbbüsü çərçivəsində Azərbaycan AB-nin "Yeni qonşuluq siyasətinə" daxil edilib. 2009-cu ildə Praqada Avropa İttifaqı və altı tərəfdaş ölkə (Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova və Ukrayna) arasında münasibətlərin genişləndirilməsi üçün "Şərq tərəfdaşlığı" təşəbbüsü qəbul edildi. Bu proqrama qoşulan ölkələrlə Avropa İttifaqı arasında münasibətlərin gücləndirilməsi və inteqrasiya məsələ-



ləri ehtiva olunurdu. Həmçinin sonda Assosiasiya Sazişinin imzalanması nəzərdə tutulurdu.

Ancaq sonradan beynəlxalq arenada münasibətlər dəyişdi. Rusiya buna qarşı çıxdı və məlum oldu ki, Avropa İttifaqının Şərq tərəfdaşlığı ölkələrini müdafiə etmək strategiyası yoxdur. Əslində Aİ bu təşəbbüslə beynəlxalq arenada daha güclü olmaq və öz maraqlarını qorumaq niyyətindədir. Nəticədə Assosasiya sazişi təklifindən imtina etmiş ölkələrə qarşı əsl müharibə başladıldı. Assosasiya sazişinin gətirəcəyi fəlakətləri düzgün hesablayan Azərbaycan sazişi imzalamadı, ancaq Avropa İttifaqı ilə əlaqələrin gücləndirilməsində və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində maraqlı olduğunu ifadə etdi.

Müstəqillikdən qısa müddət keçməsinə və ərazilərinin işğalına baxmayaraq, Azərbaycan ölkə rəhbərliyinin həyata keçirdiyi xarici siyasət nəticəsində bu gün beynəlxalq münasibətlər sisteminin nüfuzlu üzvlərindədir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasət prinsipləri Azərbaycanı Cənubi Qafqazın və ümumilikdə Avrasiyanın mühüm ölkələrindən birinə çevirib. Bu siyasət nəticəsində Azərbaycan ərazisinin bir hissəsini işğal etmiş, böyük dövlətlərin hamiliyi hesabına dikbaşlıq edən Ermənistanı beynəlxalq arenada tamamilə sıxışdıra bilib. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasət öz müsbət təsirlərini göstərməkdədir. Hazırda Azərbaycan beynəlxalq miqyaslı enerji, nəqliyyat və təhlükəsizlik layihələrinin təşəbbüsçüsü kimi çıxış edir, regionun lider ölkəsi kimi böyük dövlətləri hesablaşmağa məcbur edir. Bu gün qonşuluqda olan və həmçinin Avropanın əksər ölkələri ilə müqayisə aparsaq uğursuz xarici siyasət nəticəsində müstəqilliklərini demək olar ki, tamamilə itirmiş Ermənistan və ya böyük dövlətlərin siyasi təsiri altına düşərək müstəqil xarici siyasət yeritməkdən məhrum olmuşdur.

**Ölkə rəhbərliyinin dəqiq və düşünülmüş xarici siyasəti nəticəsində isə Azərbaycan bu gün regionda baş verən vətəndaş müharibələrini, siyasi kataklizmləri yaşamır. Eyni zamanda Azərbaycan dünyaya uğurla inteqrasiya edir, fəal xarici siyasəti ilə ölkənin beynəlxalq nüfuzunu artırır. Bütün bunların dünyanın böyük və güclü ölkələrində mütəşəkkil anti Azərbaycan yönümlü siyasi qruplaşların fəaliyyəti və zəngin təbii sərvətlərə malik ölkəni öz nüfuz dairəsinə salmaq arzusunda olan güclü dövlətlərin mövcudluğu fonunda baş verdiyini nəzərə alsaq, ölkə rəhbərliyinin nə qədər uğurlu xarici siyasət yeritdiyini daha aydın görmək olar.**

**CAVANŞİR**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə çap edilib**